# THEORETICAL AND EMPIRICAL FOUNDATIONS OF TEACHER TRAINING MODELS IN SINGAPORE

**Boyukagha Mikayilli**

Ministry of Science and Education of the Republic of Azerbaijan, editor-in-chief of "Preschool and primary education"
scientific-methodical
journal E-mail:
tehsil.zaman@mail.ru
https://orcid.org/0000-0001-8931-0459

**Abstract**. In the article, modern models in the field of pedagogical staff training, specialized education, and other programs for the formation of teachers' professional development strategies in Singapore are studied, their comparative studies are conducted, and important aspects of teachers' professional training are emphasized in the direction of reducing the burden. The main focus of the research work is also on the issue of student enrollment in pedagogical education. From this point of view, the activity of the National Institute of Education (NIE), which is the only institution that prepares teaching staff in Singapore, and operates under the Nanyang Technological University, is discussed, the admission to the institute, the teaching staff training models and programs applied here are examined. Based on research, the idea is supported that the

profession- al development of teachers in the Singapore education system is based on the “Values-Skills-Knowledge” (V3SK) normative framework. In the 21st century, the main professional skills and competencies of a teacher are determined by the mentioned norms, that is, to what extent is the teacher a bearer of moral values? Can the skills and competencies he has created be the basis for the cultivation of a modern-minded, broad-mind-ed personality? This and other such questions are clarified in the research work.
**Keywords:** National Institute of Education, teacher’s competency model, XXI century teacher model, pedagogical practice model, values-skills-knowledge, teacher’s ethics, professional skills, joint learning.

# SİNQAPURDA PEDAQOJİ KADR HAZIRLIĞI MODELLƏRİNİN NƏZƏRİ VƏ TƏCRÜBİ ƏSASLARI

**Böyükağa Mikayıllı**

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
"Məktəbəqədər və ibtidai təhsil" elmi-metodik jurnalı, baş redaktor
E-mail: tehsil.zaman@mail.ru https://orcid.org/0000-0001-8931-0459

**Annotasiya.** Məqalədə Sinqapurda pedaqoji kadr hazırlığı, müəllimlərin peşəkar inkişaf strategiyasının formalaşdırılması üçün ixtisaslaşdırılmış təhsil və digər proqramlar sahəsində müasir modellər tədqiq olunur, onların müqayisəli təhlilləri aparılır və peşəkar hazırlıq səviyyəsinin yüksəldilməsi istiqamətində əhəmiyyətli cəhətləri vurğulanır. Tədqiqat işində əsas diqqət həm də mövzunun tərkib hissəsi kimi pedaqoji təhsildə tələbə qəbulu məsələsinə yönəldilir. Bu baxımdan, Nanyanq Texnologiya Universitetinin nəzdində fəaliyyət göstərən və Sinqapurda pedaqoji kadr hazırlayan yeganə müəssisə olan Milli Təhsil İnstitutunun (MTİ), (National Institute of Education – NIE) fəaliyyəti, instituta qəbul, burada tətbiq olunan pedaqoji kadr hazırlığı modelləri, proqramları araşdırılır. Sinqapur təhsil sistemində müəllimlərin peşəkar inkişafının təməlində dayanan "Dəyərlər – Bacarıqlar – Bilik" (*V3SK*) normativlər çərçivəsinin əhəmiyyətli tərəfləri təhlil olunur. XXI əsrdə müəllimin əsas peşəkar bacarıq və səriştələrinin

bu normativlərlə müəyyən olunduğu qeyd edilir. Müəllim nə dərəcədə mənəvi dəyərlər daşıyıcısıdır? Onun malik olduğu bacarıqlar və səriştələr müasir düşüncəli, geniş təfəkkürlü şəxsiyyətin yetişdirilməsinin əsaslarını yarada bilirmi? Tədqiqat işində bu və bu kimi digər suallara aydınlıq gətirilir.

**Açar sözlər:** Milli Təhsil İnstitutu, müəllimin səriştəlilik modeli, XXI əsrin müəllim modeli, pedaqoji təcrübə modeli, dəyərlər-bacarıqlar-bilik, müəllim etikası, peşəkar bacarıqlar, birgə öyrənmə.

## Introduction

Tədqiqat işində Sinqapurda pedaqoji kadr hazırlığının əsas xüsusiyyətləri araşdırılır. "Sinqapurda pedaqoji kadr hazırlığı modellərinin nəzəri və təcrübi əsasları" mövzusunda araşdırmalar aparılmasında məqsəd ölkənin bu sahədəki mütərəqqi təcrübəsini Azərbaycanın elmi-pedaqoji ictimaiyyətinə çatdırmaqdır. Təhsil sistemi inkişaf etmiş bir ölkədə bu inkişafın təməlində pedaqoji kadrların peşəkar hazırlıq səviyyəsinin dayandığını birmənalı olaraq söyləmək mümkündür. Sinqapurda pedaqoji kadrlar necə hazırlanır? Müəllim hazırlığının fəlsəfəsi nədən ibarətdir? Pedaqoji kadrların təkmilləşdirilməsi işi hansı konseptual əsaslara söykənir? Pedaqoji kadr hazırlığında hansı fərqli modellərə müraciət olunur? Peşəkar inkişaf proqramları hansılardır? Peşəkar inkişafla karyera yüksəlişi arasında hansı paralellər mövcuddur? Məqalədə bu suallar araşdırılır. Qeyd etmək yerinə düşər ki, Azərbaycanda bu mövzuda tədqiqatlar aparılmamışdır. Halbuki, mütərəqqi təcrübənin öyrənilməsi baxımından buna zəruri ehtiyac var. 2021-ci ildə nəşr olunmuş "Sinqapur təhsilinin fəlsəfəsi" adlı kitabımda bu mövzuya

ötəri toxunmuşam. Dünya miqyasında aparılan tədqiqatlara nəzər yetirdikdə Sinqapurda pedaqoji kadr hazırlığı məsələsinə kifayət qədər tədqiqatların həsr olunduğunu görmək mümkündür. Həmin tədqiqatlar, eləcə də Sinqapur Təhsil Nazirliyinin elektron resursları araşdırmalar zamanı mənbə kimi istifadə olunub.

## Main part

1979-cu ildən başlayaraq Sinqapurun təhsil sistemi yeni islahatlar mərhələsinə qədəm qoydu. Bu mərhələnin əsas xüsusiyyəti müəllimlərin sosial statusunun artırılması, eləcə də onların və məktəb direktorlarının mütəmadi olaraq, fasiləsiz peşəkar təkmilləşdirilməsi məsələlərinə xüsusi diqqət yetirilirməsi ilə seçilirdi. İslahatın nəticəsi olaraq, 1984-cü ildə təhsilin keyfiyyət göstəricisinin əvvəlki illərlə müqayisədə 90% artdığı müşahidə edildi.

Təhsil prosesində qısa müddət ərzində böyük nailiyyətlər əldə etmək çətindir. Mütəxəssislər Sinqapur təhsil sistemində müsbət dəyişikliklərin, yalnız 2014-cü ildə – iqtisadi artım və təhsil müəssisələrinin maddi-texniki bazasının əsaslı şəkildə gücləndirilməsi fonunda baş verdiyini qeyd edirlər. Belə hesab edirlər ki, Sinqapurda da təhsil islahatlarının hərəkətverici qüvvəsi digər ölkələrlə eyniyyət təşkil edir: iqtisadi artım, pedaqoji kadr hazırlığı, eləcə də müəllimlərin peşəkarlıq səviyyəsi, yüksək peşə bacarıqlarının təcrübədə tətbiq olunması imkanlarının yaradılması, pedaqoji elm sahələrinin inkişafı, nəhayət, müəllimliyin perspektivli sahə kimi qəbul edilməsinə nail olmaq. Sinqapur elektronika və əczaçılıq, həmçinin nəhəng maliyyə və neftayırma mərkəzi kimi dünyanın lider dövlətləri sırasında dayanır. Onun "iqtisadi möcüzəsi" yalnız iqtisadi islahatların uğurlu nəticələri və korrupsiya ilə mübarizə sahəsində əldə

etdiyi qalibiyyətlə deyil, həm də sosial modernləşmə ilə bağlıdır. Sonuncunun isə təməlində təhsil sistemi dayanır.

İslahatlar müəllimlik peşəsində yeni yanaşmalar formalaşdırdı. Pedaqoji təhsil sahəsində baş verən dəyişikliklər diqqəti problemləri müasir texnologiyalar vasitəsi ilə öyrənməyə yönəltdi, nəzəriyyə və təcrübənin, təcrübə mübadiləsi məqsədi ilə məktəblərarası əlaqələrin, təhsil və pedaqogika sahəsində səmərəli tədqiqatların genişləndirilməsinə imkan yarandı.

İslahatlar, ümumən pedaqoji təhsilin keyfiyyətini yaxşılaşdırdı, müəllim nüfuzunun daha da yüksəlməsi, yeni fəaliyyətə başlayan müəllimlər üçün təcrübə keçmək, Sinqapur Milli Təhsil İnstitutu tələbələrinin beynəlxalq təcrübə mübadiləsi imkanlarının artmasına yol açıldı, dizayn təfəkkürünə dayanan texnologiya əsaslı təlim və infrastruktur təkmilləşdirildi. Sinqapurda "XXI əsr pedaqoji təhsil modeli"nin yaradılmasında əhəmiyyətli dərəcədə rol oynamış mütəxəssislərdən biri, professor Tan Un Senq belə bir ideya irəli sürdü: "Sinqapur müəllimləri yüksək tədqiqatçılıq savadına malik olmalı, fundamental tədqiqatlar vasitəsi ilə tədris təcrübələrini təkmilləşdirmək səriştəsinə yiyələnməlidirlər". Bu ideya hökumətdən dəstək aldı. 2018–2022-ci illərdə təhsil tədqiqatlarına ayrılan vəsait 25 faiz artaraq 122 milyon Sinqapur dollarına çatdı [https://www.moe.gov.sg/about/ singapore-teaching-practice, 15.01.2022].

İslahat dövründə bütün diqqətlər elmi dairələrdə, ümumilikdə təhsil sistemində liderliyin inkişafına və yeni yanaşmaların formalaşdırılmasına yönəlmişdi. Əsas təhsil agentlikləri, o cümlədən, Sinqapur İmtahan və Qiymətləndirmə Şurası (*SEAB*), Sinqapur Çin Dili Mərkəzi (*SCCL*), Erkən Uşaqlıq Dövrü Milli İnstitutu (*NIEC*) bu prosesə cəlb olunmuşdu

[A.O.Budarina., İ.N.Simayeva., A.S.Chupris, V.A.Shatoxina, İ.Kanta, 2022].

Professor O.S.Tan yazır: “Təhsil mənəvi azadlığı təmin etmək, hər bir öyrənənə inam, ümid vermək və həyatda tutduğu mövqeyindən asılı olmayaraq hər kəsə öz potensialını reallaşdırmaqda kömək etməkdir... XXI əsrin qeyri-müəyyənlikləri ilə üzləşən müəllimlər və şagirdlər bir çox problemlərin öhdəsindən gəlmək, hərtərəfli inkişaf etmək üçün iradə sahibi olmalıdırlar. Buna görə də pedaqoqlar və məktəb rəhbərləri uşaqları öyrətmək, onları gələcəyə hazırlamaq üçün çərçivədən kənar düşünməli və təlim-tərbiyə prosesinə geniş aspektdə yanaşmağa çalışmalıdırlar” [Tan O.S., 2022]. Başqa sözlə desək, islahatlar müəllimin məqsədlərinə yeni çalar qatdı: təhsil mühitinin sosial və mədəni aspektləri daha ciddi şəkildə nəzərə alınmağa başlandı, öyrənməyə müsbət emosional münasibətin stimullaşdırılmasına, şagirdin fərdi inkişafına diqqət ön plana çəkildi. İndi öyrənmə həm idrakın, həm də dünyagörüşünün formalaşmasını özündə ehtiva edir.

Gələcək müəllimlərin hazırlanması prosesində dəyərlərin mahiyyətinin aşılanması, onların dərk edilməsi və etik standartların öyrədilməsi “Meranti” layihəsi kimi xüsusi proqramlar vasitəsi ilə həyata keçirilir. “Cəmiyyəti dərk etmək”, “Sinqapur koleydoskopu” kimi proqramlarda iştirak etməklə tələbələr özlərini və başqalarını, cəmiyyətin ehtiyaclarını daha dərindən anlamaq imkanı qazanırlar. Layihə əsaslı öyrənmə və öyrətmə ideyası  Sinqapur təhsil sistemində geniş yayılıb. Bu ideyanın mahiyyəti həm də ondan ibarətdir ki, təhsil proqramlarının tətbiq olunmasının intensivliyindən asılı olmayaraq, tələbədən 100 faiz nəticə əldə etmək” mümkün deyil, lakin ona elə bacarıqlar vermək mümkündür ki, o, gələcək öyrənmə prosesində ondan istifadə edə bilsin” [Chia L. W.,

2021].

## Nəticə / Conclusion

Tədqiqat işində Sinqapurda pedaqoji kadr hazırlığı modelləri ilə bağlı elmi-pedaqoji ictimaiyyət üçün maraq doğura biləcək nüanslar aşkara çıxarılır. Öncə belə bir nəticə hasil olur ki, Sinqapurda inkişaf etmiş təhsil sisteminin təməlində yüksək səviyyəli pedaqoji kadrlar dayanır. Bəs pedaqoji kadr hazırlığı necə həyata keçirilir? Ölkədə yeganə ali pedaqoji təhsil müəssisəsi olan Milli Təhsil İnstitutuna kimlər və necə qəbul olunur? Tədqiqat işi bu suallara da aydınlıq gətirir. Problemin fundamental tərəfi kimi, institutda pedaqoji kadr hazılğı işinin təşkili məsələsinin dayandığı nəticə olaraq qeyd edilir. Tədqiqat işində əldə olunan nəticələr Milli Təhsil İnstitutunda həyata keçirilən, pedaqoji kadr hazırlığının yüksək səviyyəsini təmin edən modellərin, layihələrin, onların elmi-pedaqoji, metodoloji aspektlərinin, İnstitut tərəfindən hazırlanmış "XXI əsr müəllim modeli"nin özündə ehtiva etdiyi səriştə tiplərinin təhlilinə əsaslanır. Araşdırma nəticəsində gəlinən nəticələrdən biri də bundan ibarətdir ki, institutda dünyanın mütərəqqi pedaqoji təcrübəsinin ümumiləşdirilməsi və təhlili istiqamətində fəal elmi-metodiki iş aparılır. Yəni təhsil sisteminin daha da inkişaf etdiriliməsi, dünyanın inkişaf tendensiyaları ilə ayaqlaşması və yeni inkişaf parametrlərinin tapılması yolları bu gün də axtarılır.

Tədqiqatda Sinqapurda müəllimlərin peşəkar təkmilləşməsi işinin əsas istiqamətləri təhlil olunur. Bu işin səmərəli təşkili üçün Təhsil Nazirliyi tərəfindən verilən elmi-metodiki dəstəyin imkan və yolları öyrənilir. Ölkədə müəllimlərin fasiləsiz təhslinin səmərəli təşkilinə təhsilin inkişafı üzrə milli strategiyanın ən mühüm hədəfi kimi baxıldığı, müəllim

nüfuzunun ölkənin milli qüruru anlamına gəldiyi qənaəti hasil olur.

## İstifadə olunmuş ədəbiyyat / References


1. Mikayıllı B. (2021). Dünyanın təhsil mənzərəsi. Bakı.
2. Mikayıllı B. (2021). Sinqapur təhsilinin fəlsəfəsi. Bakı.
3. Alishev T.B., Gilmutdinov A.X. (2010). Opit Singapura: sozdaniye obrazovatelnoy sistemi mirovogo urovnya, Voprosi obrazovaniya, №4.,
   s. 227-246.
4. Danilova L.N. (2022). Pedagogika obrazovaniye v Singapure: kompetentnostno - tsennostniy podxod.
5. Lesin S.M., Shevelyova N.N., Maxotin D.A., Kurskov S.A. (2021). Strategiya professionalnogo pazvitiya pedagoga: opit singapura i nor- vegii, vestnik rmat № 3
6. Budarina A.O., Simayeva İ.N., Chupris A.S., Shatoxina V.A. (2022). Osobennosti professionalnoy podgotovki pedagogov: opit singapura. Vestnik Baltiysgogo federalnogo uviversiteta im. İ.Kanta.
7. Sergiyenko A.Y. (2018). Career Ladder Singapore URL: https://clus- ter28files. instructure. com/courses/ 1875~5183/files/1875~1496459/ course%20files/ Career% 20 Ladder_Singapore.pdf?download_frd=1&sf_verifier=&ts=&user_ id= (data obrasheniya: 20.02.2018)

8. Liew., (2012). Perform or else: The performative enhancement of teacher professionalism. Asia Pacific Journal of Education, 32-3: 285–303. DOI: 10.1080/02188791.2012.711297.
9. Lim, K.M. (2013). Teacher Education in Singapore.
10. Durgesh Rajandiran. (2009). A Teacher…. https://link.springer.com/ chapter/10.1007/978-3-030-57039-2_3
11. Redpath J. (2018). Report on the Singapore group visit 2008. URL: www. ltscotland.org. uk/Images/JohnRedpathFR_tcm4–555580.doc. P. 17 (data obrasheni: 20.02.2018)
12. Tan O.S. (2018). Learning for life. URL: https://blogs.ntu.edu.sg/ntu researchhub/ 2017/12/18/learning-for-life-prof-tan-oon-seng (data obrash- eniya: 01. 02. 2022).
13. Chia L. W. (2021). Preparing Teachers for the Unknown Future: The Singapore’s Perspective / Mezhdunarodniy onlayn-seminar «Pedagogicheskoye obrazovaniye XXI veka: noviye vizovi i resheniy», 11 noyabrya 2021 g.; obrazovatelnaya platforma SCLAD. URL: https://drive.google. com/drive/folders/1-DGsPf1G_lX8YZKCtP8e8Bca_whin hi5?usp=sharing (data obrasheniya: 03.02.2022).
14. Seet Shuen Ai Jo-An. (2021). Becoming a Teacher: reflection, inquiry and identity. URL: http://www.nie.edu.sg/ppi (data obrasheniya: 08.02.2022).
15. Yew J. (2015). E-Portfolio in Teacher Education: our journey / PGDE Junior College, URL: http://www.nie.edu.sg/ppi (data obrasheniya: 20.01.2022).
16. Pillai A.D., Ellis M., Tan O. S. (2009). Singapore. Project Work-Exploring Processes, Practices and Strategies / ed.

17. Zhang N. Inquiring into practice: learning for teaching, learning from teaching. URL: https://www.nie.edu.sg/ppi (data obrasheniya: 12.01.2022).
18. https://repository.nie.edu.sg/500
19. https://www.moe.gov.sg/about/singapore-teaching-practice, 15.01.2022].